## Şikayətlərin sayında ciddi azalma müşahidə olunur

2012-ci ilin 9 ayı ərzində dövlət vergi orqanlarına cəmi 38180 müraciət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 604 müraciət və ya 1,6% azdır. Daxil olmuş müraciətlərdən 37362-si (97,9%) ərizə, 792-si (2%) şikayət, 26-sı (0,06%) təklif olmuş, 339 müraciətin icrası xüsusi nəzarətə götürülmüşdür. Müraciətlərin 43,5%-i arayış alınması, 18,5%-i kameral vergi yoxlamaları, 14%-i vergi borcları, 1,6%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,5%-i korrupsiya hüquqpozmaları, 21,9%-i digər məsələlərlə bağlıdır. Müraciətlərin ümumi sayındakı artım, əsasən, vergi qanunvericiliyinin tətbiqi (23,2%), vergi borcları ilə (3,4%) və ƏDV ilə bağlı (15,6%) qeydə alınmışdır.

Daxil olmuş şikayətlərin ümumi sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 204 ədəd və 20,5% azalmışdır. Daxil olmuş 792 şikayətdən 230-u eyni, 81-i təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 481 məsələ ilə bağlıdır. Şikayətlərin faktiki sayından 37,6%-i audit, 36%-i operativ nəzarət, 15%-i bəyannamə, 11,4% digər sahələr üzrədir.

İlin əvvəlindən bəri nazirliyə daha çox faktiki şikayət Vergi Auditi Departamenti (143 şikayət), Bakı Şəhər Vergilər Departamenti (61 şikayət), 6 saylı (24 şikayət), 12 saylı (22 şikayət), 11 saylı (19 şikayət) Ərazi Vergilər İdarəsinin əməkdaşları barəsində olmuşdur.

Müraciətlərin ümumi sayından 78%-i müsbət həll olunmuş, 11,9%-i barədə müvafiq izahat verilmiş, 5,3%-i əsassız sayılmış, 1,2%-i qismən həll olunmuş, 1%-i aidiyyəti üzrə göndərilmiş, 24,4%-i icradadır.

Hesabat dövründə nazirliyin aparatına 3030 müraciət, o cümlədən 2398 ərizə, 631 şikayət, 11 təklif daxil olmuş, 215 müraciətin icrası xüsusi nəzarətə götürülmüşdür. Şikayətlərin 211-i eyni, 75-i təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 335 məsələ ilə bağlıdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə nazirliyin aparatına daxil olan müraciətlərin ümumi sayı 340 ədəd (10%), şikayətlərin faktiki sayı isə 81 ədəd (19,5%) azalmışdır.

### *Şikayətlərə həssas münasibət nümunəsi*

«Bir məktubun izi ilə...» rubrikasını azmaqda məqsədimiz vergi ödəyicilərini qayğılandıran, narahat edən məsələlərlə bağlı şikayətlərin araşdırılması və müvafiq qərarların qəbulu prosesini obyektiv işıqlandırmaqdır.

Ümidvarıq ki, bu silsilədən təqdim edəcəyimiz yazılar qəzetimizin oxucularında maraq doğuracaqdır.

İqtisadi baxımdan inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməyi başlıca məqsəd kimi müəyyənləşdirən Azərbaycan qanunun aliliyinə, ictimai həyatın ən müxtəlif sahələrində şəffaflıq və hesabatlılığın gücləndirilməsinə, hər bir vətəndaşın qanuni maraq və mənayefinin təminatına yönəlmiş siyasət yürüdür. Açıq cəmiyyət quruculuğu məqsədini özündə ehtiva edən bu siyasətin prioritet istiqamətlərindən biri də aidiyyəti dövlət qurumlarında vətəndaşların ərizə və şikayətlərinin ölkə qanunvericiliyinə müvafiq qaydada araşdırılması, obyektiv qərarların qəbuludur.

Son illər Prezident İlham Əliyevin imzaladığı çoxsaylı qanun, fərman və sərəncamlarda, dövlət proqramlarında bu məsələ dəfələrlə önə çəkilib, vətəndaşların ərizə və şikayətlərinə baxılması üçün daha çevik və işlək mexanizmlərin formalaşdırılması ilə bağlı konkret tapşırıqlar verilib. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» və «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» bu sahədə əlavə tədbirlərin həyata keçirilməsini tələb edir.

Şəffaflığın təmin olunması və vətəndaşlara göstərilən elektron xidmətlərin davamlı olaraq təkmilləşdirilməsi sahəsindəki fəaliyyəti beynəlxalq və yerli qeyri-hökumət təşkilatları tərəfindən yüksək dəyərləndirilən Vergilər Nazirliyi ölkə başçısının müvafiq göstərişlərini, imzaladığı fərman və sərəncamları, habelə dövlət proqramlarını rəhbər tuturaq vətəndaşların qəbuluna, ərizə və şikayətlərinə baxılmasına həssaslıqla, diqqətlə yanaşır. Hər bir ərizə, şikayət və təklif qanunamüvafiq qaydada və müddətdə araşdırılaraq nəticəsi barədə vergi ödəyicilərinə məlumat verilməsi vergi orqanlarının əsas vəzifələrindən biri hesab edilir.

Aparılan təhlillər göstərir ki, vergi qanunvericiliyinin pozulmasına rəvac verən halların böyük əksəriyyəti vergi ödəyicilərinin vergi öhdəliklərini yerinə yetirməməsi nəticəsində yaranır. Bəzi hallarda vergi orqanları əməkdaşlarının qanunvericiliyin tətbiqi zamanı müəyyən prosedur qaydaları pozması hallarına da təsadüf olunur. Vergilər Nazirliyinin ərizə və şikayətləri araşdıran müvafiq instansiyaları, o cümlədən Vergi Apelyasiya Şurası bütün hallarda məhz qanunvericiliyin tələblərinə uyğun, obyektiv qərar çıxarmağa çalışır.

***Çek vurmur, amma cərimədən narazılıq edir***

«Fa-noy» MMC-nin nəzdində fəaliyyət göstərən «Noahs-Ark» hotelinin direktoru Bəhram Quliyev nazirliyə ünvanladığı 2012-ci il 8 avqust tarixli şikayət ərizəsində Vergi Auditi Departamentinin əməkdaşlarının 2012-ci il 20 iyul tarixdə həmin obyektdə apardıqları operativ vergi nəzarətinin nəticəsindən narazılığını bildirmiş, tərtib olunmuş aktın və bu əsasda qəbul edilmiş «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında» qərarın ləğv olunmasını xahiş etmişdi.

Müraciətin araşdırılması zamanı «Noahs-Ark» hotelinin direktoru Bəhram Qurbanovun səlahiyyətli nümayəndəsi Adil Valeh oğlu Mehralıyev və Vergi Auditi Departamentinin Operativ nəzarət idarəsinin əməkdaşları - dövlət vergi müfəttişləri Rəşad Məhərrəmov və Rahim Quliyev nazirliyə dəvət olunaraq yazılı izahatları alınıb. Araşdırmalar nəticəsində məlum olub ki, departamentin Operativ nəzarət idarəsinin 17 iyul 2012-ci il tarixli «Operativ vergi nəzarətinin həyata keçirilməsi haqqında» qərarına əsasən, idarənin əməkdaşları 2012-ci il 20 iyul tarixində «Noahs-Art» hotelində operativ vergi nəzarəti həyata keçirərək nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulduğunu aşkar ediblər. Yol verilmiş pozuntu ilə əlaqədar «Nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması haqqında» akt tərtib edilib. Tərtib edilmiş aktı obyektin mühasibi Pərvin Məmmədov da imzalayıb. Həmin akt əsasında departament tərəfindən 27 iyul 2012-ci il tarixdə «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında» müvafiq qərar çıxarılıb, «Fa-Noy» MMC-yə 800 manat məbləğində maliyyə sanksiyası tətbiq edilib.

***Şikayət əsassız sayılıb***

Departamentin Operativ nəzarət idarəsinin əməkdaşı, dövlət vergi müfəttişi R.Məhərrəmov «Noahs-Art» hotelinin nağd pul hesablaşmalarının aparılması qaydalarını pozduğunu, qeydiyyat masasının yanında, ümumiyyətlə, nəzarət-kassa aparatının və qəbzlərin olmadığını bildirib. Digər vergi əməkdaşı da izahatında bu faktları təsdiqləyib. Şikayətçi tərəf hotelin video-kamerası ilə prosesin çəkildiyini iddia etsə də sonradan vergi orqanına heç bir sübut təqdim edilməyib. Aktın guya mühasibin təcrübəsizliyi səbəbindən imzalanması ilə bağlı iddia da əsaslı sübut sayılmayıb.

Hərtərəfli araşdırmalardan sonra «Fa-Noy» MMC-nin nəzdində fəaliyyət göstərən «Noahs-Ark» hotelinin direktoru Bəhram Qurbanovun Vergilər Nazirliyinə daxil olmuş şikayəti təmin edilməyib. Operativ vergi nəzarəti zamanı departament əməkdaşlarının tərtib etdikləri 2012-ci il 20 iyul tarixli «Nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması vəziyyəti haqqında» akt və həmin akt əsasında qəbul olunmuş «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında» qərarı qüvvədə saxlanılıb...

***Şikayətlərə ciddi yanaşılır...***

Bakı Şəhər Vergilər Departamentində qeydiyyatda olan Zaur Mehman oğlu Məmmədov 2012-ci il 5 avqust tarixli şikayət ərizəsində vergi orqanı tərəfindən kameral qaydada hesablanmış vergi məbləğinin azaldılmasını xahiş etmişdir...

***Araşdırmalar nə göstərdi?***

Bəyannamələrə əsasən, 2010-cu il yanvarın 1-dən 2011-ci il dekabrın 31-dək təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın və gəlirlərin həcmi 3305 manat, orta günlük dövriyyə 4,5 manat təşkil edib, işçi sayı 1 nəfər göstərilib.

Şübhə doğuran kənarlaşmalarla əlaqədar vergi ödəyicisinə 25 yanvar 2012-ci il tarixdə vergi orqanı tərəfindən «Kameral vergi yoxlaması üçün zəruri olan sənədlərin (məlumatların) tələb

edilməsi haqqında» məktub göndərilib. Lakin vergi ödəyicisi məktubda qeyd olunan müddətdə təsdiqedici sənədlər və ətraflı izahat məktubu təqdim etməyib. Bu səbəbdən də Vergi Məcəlləsinin 37, 67 və 83-cü maddələrinin tələblərinə müvafiq olaraq, eyni ərazidə fəaliyyət göstərən Zakir Calal oğlu Musayev analoji vergi ödəyicisi kimi seçilib.

Zakir Calal oğlu Musayevin sahibkarlıq məqsədi üçün istifadə etdiyi obyekt üzrə 2010-cu il 1 yanvar tarixdən 2011-ci il 31 dekabr tarixədək olan müddətdə təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın və gəlirlərin həcmi 12 min manat olub. Bu göstəriciyə əsasən hesablanmış vergi məbləği ilə əlaqədar Z.Məmmədova 31 yanvar 2012-ci il tarixdə «Vergilərin hesablanması barədə bildirişlər» göndərilib.

Vergi ödəyicisi tərəfindən hesablanmış kameral vergi məbləği ilə əlaqədar 2012-ci il 31 mart tarixdə dəqiqləşdirilmiş bəyannamələr təqdim olunub, yenidən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın və gəlirlərin həcmi analoji vergi ödəyicisinin göstəricilərindən az göstərilib.

Aparılan araşdırmalar zamanı məlum olub ki, vergi ödəyicisi fəaliyyət göstərdiyi obyektdə avtomobillərin yuyulması ilə məşğul olduğu halda, analoji vergi ödəyicisi Zakir Calal oğlu Musayevin fəaliyyət göstərdiyi obyektdə avtomobillərə texniki xidmət göstərilir.

Vergi ödəyicisinə kameral qaydada vergi hesablanarkən analoji vergi ödəyicisi düzgün seçilmədiyindən vergi orqanı tərəfindən ona verginin hesablanması düzgün aparılma-mışdır.

Beləliklə, «İnzibati icraat haqqında» Qanunun 80.1.2-ci maddəsinə əsasən, 17 iyun 2012-ci il tarixli «Vergilərin hesablanması barədə bildirişlər» etibarsız hesab edilmişdir.

***Şikayətçi qərardan razıdır***

Z.Məmmədov Vergilər Nazirliyinə müraciətində qaldırılan məsələ müsbət həll edildiyi üçün heç bir şikayətinin olmadığını bildirmişdir.

Samir MUSTAFAYEV